# Kiçik yaşlı məktəblilərdə şəxsiyyət keyfiyyətlərinin inkişafı

**Zərifə Əliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun Yaş və pedaqoji*
*psixologiya kafedrasının dosenti*
**E-mail:** zerife_alieva@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. Ə.B. Qədimova,
psixol.ü.f.d., dos. Q.V. Rəhimova

**Açar sözlər:** motiv, şəxsiyyət, idrak, inkişaf, elm, ictimai, vətəndaş, uşaq, təhsil
**Ключевые слова:** мотив, личность, познавательный, развития, наука, общественный, гражданин, дитя, образование
**Key words:** motive, personality, reason, development, science, social, citizen, child, education

Müasir dövrdə ictimai həyatı bütün sahələrində insan amilinin rolunun artdığı, sosial-psixoloji hadisələrin sürətlə inkişaf etdiyi, texnikanın yüksək inkişaf bir dövrdür. Elmi informasiyalar çoxluğu zənginliyi təlim-tərbiyə qarşısında yeni problemlər, həll edilməli vəzifələr qoyur. Bu vəzifələrə təlim-tərbiyə prosesində insanın dərketmə imkanlarını artırmaq, inkişaf etdirməklə yanaşı, möhkəm nüvəli, davamlı keyfiyyətlərə, elmi dünyagörüşə, ictimai məsuliyyət hissinə malik şəxsiyyətlər formalaşdırmaq da daxildir. İndi cəmiyyətə nəinki tarixin hər cür çətinliklərinə dözən, neqativ təsirlərə davam gətirən, sabit, sarsılmaz xüsusiyyətlərlə yanaşı yüksək mənəvi-psxioloji operativliyə, əqli çevikliyə, cəsarətə, müstəqil mənimsəmə və tətbiq etmə, mənimsədiyi elmi məlumatları yenidən işləyib emal etmə keyfiyyətlərə malik olan şəxsiyyətlər, vətəndaşlar, qurucular lazımdır. Bu isə hələ kiçik yaşlarından uşaqlarda zəruri şəxsiyyət keyfiyyətlərini formalaşdırmağı tələb edir. Məlumdur ki, uşaq şəxsiyyətinin əlamətləri özünü hələ üç yaşında göstərir: "Mən, özüm" ifadəsini işlədir.

Uşaq şəxsiyyətinin məqsədyönlü və mütəşəkkil inkişafında, əsasən, uşağın məktəb kollektivinə daxil olduğu dövr daha əhəmiyyətli rol oynayır. Yaradılmış motivlərə uyğun və özünüdərkin yaradılması əsasında məktəbəqədər dövrdən başlanmış şəxsiyyətin inkişafı kiçik məktəb yaşı dövründə davam etdirilir. Amma kiçik yaşlı məktəbli məktəbəqədər dövrdən tamamilə fərqli bir situasiyada olur. Kiçik məktəblinin təlim müvəffəqiyyəti, yaxşı və ya pis olması bu dövrdə bilavasitə onun şəxsiyyətinin (şəxsiyyət keyfiyyətlərinin) inkişafından asılı olur.

Şəxsiyyətin nüvəsini-əsasını, A.N.Leontyevin qeyd etdiyi kimi, motivlər sferası təşkil edir. Uşağı nə hərəkətə gətirir, onda hansı maraqlar yaranır? Uşaq məktəb həyatının başlanğıcında yaxşı oxumaq istəyir və bu onun daxili pozisiyasını (mövqeyini) təşkil edir. On görə də yaxşı və ya əla oxuyur. Lakin bu dövrdə təlimin müxtəlif sosial motivləri içərisində onların aldıqları qiymət əsas yer tutur. Kiçik məktəb yaşlı məktəblilər üçün yüksək qiymət digər rəğbətləndirmə işlərinin mənbəyini, onun emosional müvəffəqiyyətinin əsasını, vüqar və iftixarının mahiyyətini təşkil edir. Uşaq yaxşı oxuduqda onu hamı-valideynlər, müəllimlər, onu əhatə edən digər insanlar tərifləyir, başqa uşaqlara nümunə göstərirlər. Xüsusi və ya qeyri-adi bir müvəffəqiyyət isə yaxşı bir hadisə kimi qeyd edilir. Ona hədiyyələr verilir, mükafatlandırılır (bu da ailə ənənələrindən asılı olaraq aparılır). Bunlardan başqa, əsas və

həlledici hörmətə (avtoritetə) malik olan müəllimin verdiyi qiymətləndirmələr uşağın malik olduğu statusu təmin edir.

Öyrənmənin digər geniş sosial motivlərindən biri də təhsilə yiyələnmənin zəruri və vacibliyi, borcu, məsuliyyətidir, yəni uşaqlar dediyi kimi, "savadlı olmaq"dır. Bunu da uşaqlar dərk etdikdə təlim uşaqlar üçün müəyyən əhəmiyyətli işə çevrilir, öyrənmə xüsusi mahiyyət təşkil edir. Leontyev qeyd edir ki, belə olduqda uşaqlar təlimin-öyrənmənin əhəmiyyətini başa düşürlər, anlayırlar. Belə vəziyyətdə qiymət real təsir motivinə çevrilir. Yüksək qiymət almaq üçün uşaq öyrənir, bütün tapşırıqları düzgün icra etməyə çalışır. Təhsilin uzun müddət getməsi, ali təhsil almaq kimi fikirlər onlar üçün mücərrəddir və öyrənməyə real maraq doğurmur. Amma buna baxmayaraq, bu sosial motiv uşaq şəxsiyyətinin inkişafı üçün vacibdir. Bu birinci sinifdən yaxşı müvəffəqiyyətin, mənimsəmənin motivləşdirilməsi sistemində kifayət qədər öz yerini tutur.

Mənimsəmədə geri qalan şagirdlərin motivləri müvəffəqiyyətlə oxuyan uşaqların motivlərindən fərqlənir. Bir sıra uşaqlarda ilk vaxtlar yüksək qiymət almaqla ətrafdakıların rəğbətini qazanma motivi olmur. Onlarda bir sıra sosial motivlər III sinifdə yaranmağa başlayır. Geniş sosial motivlər uşaqların ailədə mənimsədiyi, böyüklərin qəbul etdiyi qiymətlərlə istiqamətləndirilir.

Uşaq həyatında ən qiymətli və əhəmiyyətli olan nədir? Hələ birinci rübün sonunda I sinif şagirdlərindən məktəb həyatında nəyi xoşlayıb-xoşlamadıqları soruşuldu. Yaxşı oxumağa çalışanların cavabı belə oldu: "Riyaziyyat və ana dili daha çox xoşuma gəldi. Çünki orada hər şey maraqlıdır", "Dərs xoşuma gəlir, amma dərsi qatan oğlanlar yox", "Dərsdəki tapşırıqlar xoşuma gəlir", "Hamı yaxşı və sözəbaxan olsa yaxşıdır" və s. Zəif və pis oxuyanların cavabı isə belə oldu: "Məktəb tətilləri xoşuma gəlir", "Məktəbdəki gəzintilər xoşuma gəlir", "İdman dərsini sevirəm" və s. Göründüyü kimi, ilk vaxtlarda onlar təlimin mahiyyətini hələ dərk etmirlər, düzgün qiymətləndirə bilmirlər.

Uşaqların şüurlu dərk etmə sahəsində də kəskin fərqlər mövcuddur. İbtidai siniflərdə hər hansı bir fənnin öyrənilməsinə güclü marağı olan uşaqlara çox az rast gəlmək olur. Adətən bu xüsusi qabiliyyətlərin erkən inkişafı ilə bağlı olur. Belə uşaqlar tək-tək olur, onlar da istedadlı uşaqlar heab olunur. Kiçik məktəb yaşlı uşaqların əksəriyyətinin dərketmə marağı və istəyi aşağı səviyyədə olur. Amma yaxşı oxuyan uşaqları müxtəlif təlim materialları, o cümlədən mürəkkəb təlim materialları cəlb edir. Onlar müxtəlif materialların öyrənilməsinə xidmət edən dərslərdə intellektual fəaliyyət göstərir, maraqlarını nümayiş etdirir.

İdrak motivlərinin mühüm aspektlərindən biri də özünüreallaşdırma motividir. Əgər uşaq təlim prosesində yeni nəyisə öyrəndiyinə başa düşdüyünə görə sevinirsə, deməli, onda təlim fəaliyyətinin strukturuna uyğun olaraq motivasiyaları inkişaf edir. Təəssüflə qeyd etmək lazımdır ki, hətta yaxşı oxuyan uşaqlar içərisində belə idraki-təlim motivlərinə malik uşaqlar azdır.

Özünüdərkdə kiçik məktəb yaşı dövründə təlim müvəffəqiyyəti, təlim işi nəticələrinin qiymətləndirilməsi əsas yer tutur. Təlim motivlərinin inkişafı qiymətdən asılı olur, məhz bu əsasla ayrı-ayrı hallarda ağır həyəcanlar və məktəbə dezadaptasiya baş verir. Qiymətləndirmə məktəblidə özünüqiymətləndirmənin yaranmasına da bilavasitə təsir göstərir. Kiçik məktəblilər müəllimin ona verdiyi qiymətlər əsasında özünü əlaçı, yaxşı oxuyan, pis oxuyan şagird hesab edir. Məktəb təliminin əvvəlində-başlanğıcında müvəffəqiyyət qiyməti mahiyyət etibarı ilə, bütövlükdə şəxsiyyətin qiymətləndirilməsi olur və uşağın sosial statusunu müəyyən edir.

Əlaçı və yaxşı oxuyan uşaqlarda yüksək özünüqiymətləndirmə yaranır. Yetirməyən və zəif

uşaqların aşağı qiymətləndirilməsi isə onlarda özünəinamı aşağı salır, onların öz imkanlarına inamlarını itirir. Onlarda özünüqiymətləndirmə özünəməxsus inkişaf etməyə başlayır. A.İ.Lipkina ibtidai siniflərdə özünüqiymətləndirmə dinamikasını öyrənərək aşağıdakıları irəli sürmüşdür.

Başlanğıcda uşaqlar yetirməyən mövqeyi ilə razılaşmırlar, yüksək özünüqiymətləndirməni qorumağa çalışırlar. Onlarda öz işlərini qiymətləndirmə təklif edildikdə işlərini layiq olduğundan yüksək qiymətləndirirlər. Bu zaman onlar nail olduqlarından çox arzu etdiklərinə əsaslanırlar. Məsələn, "2 almaqdan bezmişəm, mən də 10 almaq istəyirəm", "Mən də başqaları kimiyəm, ona görə də yüksək qiymət almalıyam" və s.

Şəxsiyyətin hərtərəfli inkişafı bu yaşda yeni yaranmanın əsasını təşkil edir. Səlahiyyət (kompotentnost) hissinin formalaşdırılması hissini də nəzərdə tutur (E.Erikson). Təlim kiçik yaşlı məktəblilərin əsas və aparıcı fəaliyyət sahəsidir. Əgər bu fəaliyyətdə uşaq özünü səlahiyyətli hiss etmirsə, onda şəxsiyyəti, şəxsiyyət keyfiyyətlərinin inkişafı təhrif olunar. Maraqlıdır ki, uşaqlar məhz təlim prosesində səlahiyyətliliyin vacibliyini dərk edirlər. M.E.Bosmanova və A.V.Zaxarovanın qeyd etdiyi kimi, kiçik məktəblilər xüsusiyyətlər içərisində əsas yeri biliyə və ağıla verirlər (N7, s. 153).

Uşaqlarda özünüqiymətləndirmə və səlahiyyət hissinin inkişafı üçün sinifdə psixoloji komfort (rahatlıq) və müdafiə atmosferinin – iqliminin yaradılması əsas və vacib şərtdir. Yüksək pedaqoji və psixoloji ustalığa malik müəllimlər uşaqları hərtərəfli, vahid prinsip əsasında qiymətləndirməklə yanaşı, həm də onlara özünün müsbət münasibətlərini, ondan öz qüvvəsini səfərbər edərək yaxşı qiymət alması gözlədiyini hiss etdirməyə çalışır. Hətta uşağın işini aşağı səviyyədə qiymətləndirdikdə belə ona ümid etdiyini hiss etdirməyə və emosional fon yaratmağa çalışır. Belə müəllimlər şəxsiyyəti yox konkret işi qiymətləndirir, şagirdlərə əlaçıları təqlid etməyi yönəltmir, uşaqların təlim xüsusiyyətlərini üzə çıxararaq onu daha effektiv inkişaf etdirməyə, təlim müvəffəqiyyətinə yönəltməyə çalışır. Onlar təlim müvəffəqiyyətinə asanlıqla nail olan uşaqları çox tərifləmirlər. Əksinə, zəif uşaqların təlimdə ən kiçik irəliləmələrini, səy göstərən, öyrənməyə çalışan uşaqları daha çox tərifləyərək həvəsləndirməyə çalışırlar.

Uşaqlarda özünüqiymətləndirmə təkcə təlimdə yetirməsi və yoldaşları, müəllimləri ilə ünsiyyət əsasında yaranmır. Ailə tərbiyəsi, stili, ailədə qəbul olunmuş qiymətləndirmə qaydaları da böyük əhəmiyyət kəsb edir. Uşaqda yüksək özünüqiymətləndirmə ailə kumiri prinsipi əsasında tənqidsiz şəraitdə tərbiyə olunur. Bu zaman hələ kiçik yaşlarında uşaqda özünün xüsusiliyi, əvəz olunmazlığı haqqında fikir yaranır. Özünü yüksək qiymətləndirən uşaq şəxsiyyətində hamıya və hər şeyə qarşı tələbkarlıq yaranır. Belə halda tərif və tənqiddən yerində istifadə xüsusi əhəmiyyət kəsb edir. Aşağı özünüqiymətləndirməyə malik uşaqlar ailədə geniş azadlığa malikdir. Lakin bu azadlığın mahiyyətini nəzarətsizlik, uşaqlarda valideynlərin bir-birinə etinasızlığı təşkil edir. Valideynlər uşaqların həyatına yalnız uşaqlarda konkret problem (xüsusən də təlim problemləri) yarandıqda müdaxilə edirlər. Adi halda isə uşaqların maraq və meylləri, hissləri və həyəcanları, məşğələləri ilə az maraqlanırlar. Uşaqların özünə münasibətin və qiymətin yaranmasında ailə qiymətliliyi əsas yer tutur. Uşaqda valideynlərin ailə həyatında yüksək qiymətləndirdiyi mövqe istiqamətində özünüqiymətləndirmə formalaşır. Uşağın özünüqiymətləndirməsinə valideynlərin xüsusi diqqət yetirdiyi məişət məsələri də qarışır. Yəni valideyni uşağın təlim fəaliyyəti deyil, sinfin havanın təmizliyi kimi məsələlərlə maraqlanması. Çox vaxt etinasız sorğular "Məktəbdə bu gün nə baş verdi" şəklində verilir, ona da eyni səviyyədə etinasız cavablar verilir: "Maraqlı heç nə" və s.

Q.A.Çukermanın qeyd etdiyi kimi, uşağın təlimə verdiyi qiymətlə valideynin qiyməti I sinifdə üst-üstə düşür, IV sinifdə isə ayrılır, parçalanır (N 5, s 138). Valideynlər təlim fəaliyyəti və təlimə münasibətində nəyi görmək istəyirsə, uşağın iddia səviyyəsinə uyğun da onlara əvvəldən tapşırıqlar verir. Yüksək iddialı özünüqiymətləndirməsi artıq, nüfuzlu motivasiyalara malik uşaqlar və onların valideynləri üçün əladan aşağı qiymət alma faciəyə çevrilir. Onların gələcək haqqında təsəvvürləri çox optimistdir: onları effektiv görkəm, maddi təminat, məşhurluq  və qeyri-adi peşə gözləyir. Məsələn, A.İ.Lipkina bu sahədə tədqiqat apararkən iki I sinif şagirdinə "Sən 10-15 ildən sonra necə bir  adam olacaqsan?" sualı ilə müraciət edir. Yüksək iddialı və özünü bəyənən şagird özünü hündürboylu, gözəl, təyyarə konstruktoru, Marsa və ya kosmosa uçan bir insan kimi təsvir edir və s. Aşağı  iddialı, özünü aşağı qiymətləndirən şagird  isə nə gələcəkdə, nə də indiki zamanda çox şeyə tələbkar olmurlar. Onlar öz qarşılarında yüksək məqsəd qoymur, öz imkanlarına həmişə şübhə ilə yanaşır, təlimin əvvəlindən toplanmış  mənimsəmə səviyyəsinin qiymətləri ilə razılaşırlar. Onların öz gələcək  həyatları haqqındakı planları sadə və dumanlıdır: mən gələcəkdə yaxşı işləmək istəyirəm, amma kim olacağımı hələ bilmirəm, amma həkim olmaq arzusundayam, bunun üçün yaxşı oxumalıyam, bilmirəm bacararammı və s.

Əgər uşaq məktəbə gedərkən valideynlərinin qiymət iddialarını qəbul edirlərsə, amma getdikcə-böyüdükcə az və ya çox dərəcədə yoldaşları arasında öz fəaliyyətlərini, mənimsəmə səviyyəsi və nəticələrini istiqamətləndirməyə başlayırlar. Məktəb və ailə özünüdərketmənin (özünütanımanın) xarici faktorlarıdır. Onun formalaşması uşağın reflektiv nəzəri təfəkkürün inkişafından asılıdır. Kiçik məktəbli yaşının sonunda refleksiya meydana çıxır, bunun əsasında nailiyyətin və şəxsiyyət keyfiyyətlərinin özünüqiymətləndirmənin formalaşması üçün yeni imkanlar yaranır. Özünüqiymətləndirmə daha uyğun (adekvat) və differensial şəkil alır, özünütəhlil daha əsaslı aparılır. Eyni zamanda əsaslı fərdi fərqlər müşahidə olunur. Qeyd etmək lazımdır ki, özünü qiymətləndirmə səviyyələrini dəyişdirmək çox çətindir.

Deməli, kiçik məktəb yaşı məktəb  həyatının başlanğıcıdır. Bu həyata daxil olmaqla uşaq daxilən məktəbli mövqeyinə, təlim motivlərinə yiyələnir-qazanır. Bu dövr müddətində uşaqda nəzəri təfəkkür inkişaf edir: o, yeni bilik, bacarıq və vərdişlərə yiyələnir, özünü sonrakı təlim fəaliyyəti üçün zəruri baza yaradır. Amma təlim fəaliyyəti bunlarla məhdudlaşmır. Bu təlim fəaliyyətinin nəticəsindən kiçik məktəbli şəxsiyyətinin inkişafı asılıdır. Məktəb müvəffəqiyyəti uşağın yoldaşları və yaxşıları qiymətləndirmə kriteriyaları olur. Əlaçı və yetirməyən şagird statusu uşağın özünüqiymətləndirməsinə, özünəhörmət və özünü qəbul etməsinə ciddi təsir göstərir. Təlim müvəffəqiyyəti öz qabiliyyət və müxtəlif tapşırıqları keyfiyyətlə yerinə yetirmək bacarıqlarını dərk etmə yeni özünüdərk aspekti olan səriştəlilik, etibarlılıq hissinin yaranmaması nəticəsində özünüqiymətləndirmənin səviyyəsi aşağı düşür, yarımçıqlıq hissi yaranır, özünüqiymətləndirmə və motivləşmə kompensasiyası inkişaf edə bilər.

**Məqalənin aktuallığı.** Uşaq şəxsiyyətinin məqsədyönlü və mütəşəkkil inkişafı daha çox onun məktəb kollektivinə daxil olduğu kiçik məktəb yaşı dövründə davam etdirilir. Kiçik məktəblinin təlim müvəffəqiyyəti, yaxşı və ya pis olması isə bu dövrdə bilavasitə onun şəxsiyyətinin inkişafından asılı olur. Bu isə daim məktəb kollektivinin qarşısında duran əsas məsələlərdəndir. Elə buna görə də məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə uşaq şəxsiyyətinin inkişafına təsir göstərən motivlər nəzərdən keçirilir, uşaqların şüurlu dərk etmə sahəsində mövcud olan kəskin fərqlər təhlil olunur, eləcə də özünüqiymətləndirmə və səlahiyyət hissinin formalaşması üçün sinifdə zəruri hesab edilən psixoloji şərtlər araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. II nəşr, "Çinar-çap" nəşri. Bakı, 2002.
2. Ə.Ə.Qədirov. Yaş psixologiyası. Maarif, Bakı, 2008.
3. M.Ə. Həmzəyev. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Maarif, Bakı, 1969.
4. М.В.Матюшкина. Мотивация учения младших школьников. М.: Педагогика, 1984.
5. И.Ю.Кулигина. Возрастная психология. М.: УРАО, 1998.
6. Л.И.Божович. Этапы формирования личности. М., Воронеж, 1995.
7. А.И.Липкина. Самооценка школьника. М., 1976.
8. Психическое развитие младших школьников / Под. ред. В.В. Давыдова. М., 1990.
9. Д.Б.Богаявленская. Интеллектуальная активность как проблема творчества. Ростов-н Д., 1983.
10. А.Н.Леонтьев. К теории развития психики ребенка Избр. псих. произведения: в 2 т. М., 1983 Т. I


**З. Алиева**

## Развития личностных качеств в школьниках младших лет

## Резюме

В этих статьях выяснилось о формирование личностных качествах роль учебных, социальных мотивы, роль самосознание и самооценках. И отличался значение личностных качества в развитие общества.

**Z. Alieva**

## Little adult development in pupils of the personality qualities

## Summary

The article is dealt about the formulation of junior student's personal feathers and the means that affect them social motives of formulation and the comprehension motives are explained here.

**Redaksiyaya daxil olub:** 21.01.2019